UOT: 599:575-1

# XIZI ƏRAZİSİNİN MƏMƏLİ NÖVLƏRİ

**[1]HƏSƏNOV N.Ə., [2]BÜNYATOVA S.N., [3]ƏHMƏDLİ A.A.**
*[1,2]AMEA Zoologiya İnstitutu, [3]Bakı Dövlət Universiteti.*
*hasan0@bp.com, s_bunyatova@mail.ru*

**Abstract:** As a result of research carried out in 2020-2021, 25 species of mammals were registered in the territory of Khizi. The main species of mammals belong to bats (28% - 11 species) and rodents (15% - 6 species). Five mammals have high conservation status. Common fox and common jackal are the dominant species of predators in the area. Depending on traditional migration of sheep herds the number of wolves have changed seasonally. Gazelles are very rare and individuals were released into the area in 2010. The migration of cattle and sheep has a serious impact on the fauna of large predators.
***Keywords***: *Khizi, mammals, large predators, bats, conservation status, rodents.*

## GİRİŞ

Tədqiqatın məqsədi ərazidə məməlilər faunasının müasir vəziyyətini, cari teriofaunistik növ tərkibini müəyyən etmək olmuşdur. Bilavasitə tədqiqat ərazisinin məməlilər faunası haqqında ədəbiyyat məlumatları nadirdir və mövcud tapıntılar qonşu rayonları da əhatə etməklə Xəzəryanı sahələrə, Şamaxı, Abşeron, Qobustan və s. kimi ərazilərə şamil olunur.

## TƏDQİQAT İŞİNİN MATERİAL VƏ METODLARI

Çöl işləri 2020-2021-ci illərdə Xızı rayonunun Şorabad (d.s. -23 m) və Sitalçay (d.s. -13 m) qəsəbələrindən başlayaraq d.s. 800 m-ə qədər qərb istiqamətində (15-20 km-dək) bütün fəsillərdə (qış istisna olmaqla) ümumilikdə 45 gün ərzində aparılmışdır. Ayrı-ayrı dəstələr üzrə ümumi qəbul olunmuş müşahidə və monitorinq metodlar ilə [1] çöl işləri icra edilmiş, ədəbiyyat məlumatları və kolleksiya materialları nəzərdən keçirilmiş, məməlilərin növ tərkibi dəqiqləşdirilmişdir. Müşahidələr bilavasitə fərdlərin və ya onların həyat fəaliyyəti izlərinin qeydə alınması ilə aparılmışdır. Yarasalar səyyar və stasionar ultrasəs detektorları vasitəsilə həm qeydə alınmış, həm də onların transektlər üzrə nisbi say uçotu aparılmışdır. Gəmirici növlərinin (fon) nisbi say uçotu yuvaların sayılmasına əsaslanan dolayı hesablama üsulu ilə həyata keçirilmişdir.

## TƏDQİQAT İŞİNİN ƏSASLANDIRILMASI VƏ NƏTİCƏLƏRİ

Rayon coğrafi baxımdan Böyük Qafqaz sıra dağlarının cənub-şərq qurtaracağını (Abşeron yarımadası və Qobustanla yanaşı) təşkil edir. Şimaldan Siyəzən və Quba, qərbdən Şamaxı, cənubdan Qobustan, cənub-şərqdən Abşeron rayonu ilə həmsərhəddir. Əsasən, Xızı yaylasında yerləşən rayonun şərq hissəsi Giləzi dili ilə Xəzər sularına açılır. Tipik yarımsəhradan başlayaraq, dağ meşələrinədək müxtəlif landşaft komplekslərini əhatə edir [2].

İki növ yereşən (*Crocidura guldenstaedti*, *C. leucodon*) Xaçmaz-Siyəzən əraziləri [3] və iki kirpi növü (*Hemiechinus auritus*, *Erinaceus concolor*) Abşeron yarımadası, Qobustan və Xaçmazdan [4, 5] məlumdur. Ədəbiyyata görə ərazidən təkcə küli şəbpərəsi - *Pipistrellus kuhlii* [4, 6] olduğu halda ətraf rayonlardan 15-dək yarasa növü məlumdur. Xirepterofauna və ümumiyyətlə teriofauna üzrə Xızı ərazisinə yaxın ən geniş tədqiqat işləri Abşeron-Qobustana aiddir. 1998-2005-ci illərdə Abşeron-Qobustan ayrı-ayrı öyrənilmiş, yarasa növlərinin sayı 13-ə çatmışdır [4]. Cədvəldə tədqiqat sahəsinə ən yaxın ərazilərdə tarixən qeydə alınmış yarasa növlərinin siyahısı verilmişdir. Bunların əksəriyyəti tək-tək tapıntılara əsaslanır. Qeydə alınmış növlərin ümumi sayı 11-dır ki, bu da ölkə xirepterofaunasının təxminən 30%-ni təşkil edir.

Boz dovşan (*Lepus europaeus*) dəstənin (Lagomorpha) əraziyə aid yeganə və adi növüdür [4, 5, 7]. Gəmiricilərdən dağ ərəbdovşanı (*Allactaga williamsi*) Abşeron yarımadasından yuxarı bütün Xəzəryanı litoral ərazilər üçün, boz siçovul (*Rattus norvegicus*) Abşeron və Siyəzən istiqamətlərində Xəzəryanı sahillər üçün, ev siçanı (*Mus musculus*) tədqiqat ərazisi üçün, boz siçancıq (*Cricetullus migratorius*) isə bütün ölkə ərazisi üçün (alp zonası istisna olmaqla) qeydə alınmışdır. Qırmızıquyruq qum siçanı (*Meriones libycus*) və ictimai çöl siçanı (*Microtus socialis*) ölkəmizdə geniş yayılmış gəmirici növləri kimi göstərilir [5]. Bozqır meçə siçanı (*Sylvaemus witerbyie*) əvvəllər meşə siçanı kimi (*Apodemus fulvipectus*, *S.sylvaticus fulvipectus*), bütün qonşu ərazilər və Abşeron yarımadası [5] və Abşeron-Qobustan əraziləri üçün məlumdur [4]. 2000-ci illərə qədər yalnız Talış və Naxçıvan üçün göstərilən hind tirəndazı arealını genişləndirərək tədqiqat ərazisinə də çatmışdır [8].

N.K.Vereşagin [5] Xızı da daxil olmaqla, Abşeron, Qobustan, Siyəzən əraziləri üçün Yırtıcılardan (Carnivora) adi çaqqalı (*Canis aureus*) göstərir. O, həmçinin boz canavarı (*Canis lupus*) və adi tülkünü (*Vulpes vulpes*) də Azərbaycanda geniş yayılmış növlər kimi qeyd edir. Qırmızı Kitab növü olan adi safsar (*Vormela peregusna*) və gəlincik (*Mustela nivalis*) sonralar qonşu Abşeron [5] və Qobustan ərazilərində [4] qeydə alınmışdır.

Tədqiqat ərazisi ədəbiyyatda ceyranın (*Gazella subgutturoza*) tarixi əraziləri kimi verilir - [5, 9]. 2000-ci illərin əvvəllərində ceyranlar əraziyə təkrar olaraq buraxılmışlar [4].

2020-2021-ci illərin davamlı gündüz və gecə çöl işləri ərzində 10 yarasa (Chiroptera), 4 həşəratyeyən (İnsectoivora), 5 gəmirici (Rodentia), 1 dovşankimi (Lagomorpha), 4 yırtıcı (Carnivora) və 1 cütdırnaqlı (Artiodactyla) növləri qeydə alınmışdır (Cədvəl).

**Həşəratyeyənlər (Insectivora)** - ərazidə iki kirpi növü tərəfimizdən qeydə alınmışdır - 1. *Erinaceus concolor* (ağdöş kirpi), 2. *Hemiechinus auritus* (qulaqlı kirpi). Ağdöş kirpi tipik quraqlıq sevən növ olmasa da, Xızının hətta yarımsəhra landşaflarının rütubətli stasiyalarında da qeydə alınır. Qulaqlı kirpi ərazidə landşaftın yalnız səhra və yarımsəhra elementləri ilə bağlıdır. Sitalçay ərazisindən tərəfimizdən 2 fərdi əldə edilmişdir. Yereşənlərdən bir növ - uzunquyruq ağdiş (*Crocedura guldenstaedti*) bir dəfə qeydə alınmışdır. Ağqarın ağdişin (*Crocidura leucodon*) ərazidə mövcudluğu ehtimal olunur.

**Yarasalar (Chiroptera)** – tərəfimizdən 11 yarasa növü - 1. *Rhinolophus ferrumequinum* (böyük nalburun), 2. *Pipistrellus nathusii* (meşə şəbpərəsi), 3. *Pipistrellus kuhlii* (küli şəbpərəsi), 4. *Myotis blythii* (itiqulaq gecə şəbpərəsi), 5. *M alcathoe* (alkato gecə şəbpərəsi), 6. *Eptesicus serotinis* (dağ gönlücəsi) fiziki olaraq əldə olunmuş, bunlarla yanaşı 7. *Hypsugo savii* (Savi gönlücəsi), 8. *Nyctalus noctula* (kürən axşam yarasası), 9. *Plecotus auritus* (qonur palazqulaq), 10. *Vespertilio murinus* (adi ikirəng gönlücə) və 11. *Eptesicus caspica* (səhra gönlücəsi) növlərinin ultrasəsləriyalnız səyyar və ya stasionar detektorlar tərəfindən fiksə olunmuşdur.

**Gəmiricilər (Rodentia)** - 1. *Allactaga elater* (kiçik ərəbdovşanı), 2. *Allactaga williamsi* (Kiçik Asiya dağ ərəbdovşanı), 3. *Cricetulus migratorius* (boz siçancıq), 4. *Meriones libycus* (qırmızıquyruq qum siçanı), 5. *Microtus socialis* (ictimai çöl siçanı) tədqiqat ərazisində birbaşa qeydə alınmış, 6. *Hystrix indica* (adi tirəndaz) ekskrementlərinə rast gəlinmişdir. Bütün növlər gecə və ya alatoranlıqda fəal olan gəmiricilərdir. Gecə marşrut uçotları Xızının şərq istiqamətindəki ovalıq və dağətəklərində kiçik ərəbdovşanının 3-5 fərd/km sıxlığa malik olduğunu göstərmişdir. Bu analoji biotopların tipik və dominant nümayəndəsidir. Relyef yüksəldikcə və mezofil stasiyalarda dominantlıq bozqır siçanlarının (*Sylvaemus*) payına düşür. Boz siçancıq bütün relyef elementlərinin geniş yayılmış, amma nadir və ya azsaylı növüdür.

**Dovşankimilər (Lagomorpha)** - boz dovşan (*Lepus europaeus*) ərazinin geniş yayılmış, adi və ya indikator növdür. Yarımsəhra və bozqırlarda daha çoxsaylıdır.

**Yırtıclar (Carnivora)** – 1. *Canis aureus* (adi çaqqal), 2. *Canis lupus* (boz canavar) və 3. *Vulpes vulpes* (adi tülkü) bütün ərazi boyu qeydə alınmışdır. Adi tülkü ərazinin dominant yırtıcı növüdür və bütün landşaftlarda onun əsas qidasını gəmiricilər təşkil edir. Gəlincik (*Mustela nivalis*), adi safsar (*Vormela peregusna*) və adi porsuğun (*Meles meles*) ərazidə yayılması ehtimal olunur.

**Cütdırnaqlılar (Artiodactyla)** – bir fərd ceyran (*Gazella sugutturosa*) 2020-ci ilin payızında Xızının keçmiş Şərgah kəndi yaxınlığında qeydə alınmışdır. Ərazidə, xüsusilə Qobustanla sərhəd sahələrdə əsrin əvvəllərində geniş yayılsa da, əsrin ortalarına yaxın məhv edilmişdir. Reintroduksiya

proqramı çərçivəsində 2010-cu ilin dekabrında 10 başa qədər ceyran Abşeron-Qobustan ərazisinə buraxılmışdır.

**Cədvəl**

**Ərazidə məlum olan məməli növləri (ədəbiyyat məlumatları və tədqiqat nəticələrinə əsasən)**

| N | Növün elmi adı | Qeydə alındığı yer | İstinad | Qeydə alınıb | Mövcudluq ehtimalı | Nisbi sayı | IUCN/QK |
|---|---|---|---|---|---|---|---|
| | | **Yarasalar - C h i r o p t e r a** | | | | | |
| 1 | *Rh. hipposideros* | Şamaxı, Qobustan | 6 | | az | | LC, QK |
| 2 | *Rh. blasii* | Şamaxı | 6 | | az | | |
| 3 | *Rh. mehelii* | Şamaxı, Bakı | 6; 9 | | az | | LC, QK |
| 4 | *Rh. ferrumequinum* | Şamaxı, Sündü, Kələxana, Bakı | 4; 6 | + | | adi | LC, QK |
| 5 | *Myotis blythii* | Şamaxı, Sündü, Kələxana, Bakı qub., Qobustan Qoruğu | 4; 6 | + | | adi | |
| 6 | *M. nattereri* | Şamaxı 750 m | 4; 6 | | az | | LC, QK |
| 7 | *M. mystacinus /alcatoe* | Bakı, Cənub-şərqi (CŞ) Şirvan | 6 | + | | azsaylı | |
| 8 | *Barbastella caspica* | Şamaxı, Qubadlı, Qobustan | 4; 6 | + | | azsaylı | LC, QK |
| 9 | *Nyctalus noctula* | Siyəzən | 6 | + | | | |
| 10 | *Pipistrellus pipistrellus* | Siyəzən, CŞ Şirvan, Şamaxı, Bakı, Qobustan, Sahil | 4; 5; 6 | | yüksək | | |
| 11 | *P. nathusii* | Şamaxı, Abşeron, Bakı | 4; 6; 9 | + | | miqrant | |
| 12 | *P. kuhlii* | Xızı daxil bütün regionda | 4; 6 | + | | çoxsaylı | |
| 13 | *Hysugosavii* | Qobustan Qoruğu | 4; 6 | + | | miqrant | |
| 14 | *Vespertiliomurinus* | Bakı vilayəti, Karkushlu | 4; 6 | + | | miqrant | |
| 15 | *Eptesicusbottae* | Qobustan Qoruğu | 4; 10 | + | | azsaylı | LC, QK |
| 16 | *E. serotinus* | Şamaxı, Qobustan Qoruğu, Şamaxı | 4; 6 | + | | adi | |
| | | **Həşaratyeyənlər - I n s e c t i v o r a** | | | | | |
| 17 | *Erinaceus concolor* | Abşeron, Qobustan, Xaçmaz | 5 | + | | adi | |
| 18 | *Hemiechinus auritus* | Abşeron, Qobustan, Xaçmaz | 5 | + | | adi | |
| 19 | *Crocidura guldenstaedti* | Abşeron, Xaçmaz, Siyəzən | 3; 5 | + | | | |
| 20 | *Crocidura leucodon* | Abşeron, Xaçmaz, Siyəzən | 3; 5 | | orta | | |
| | | **Dovşankimilər - L a g o m o r p h a** | | | | | |
| 21 | *Lepuseuropeaus* | Xızı daxil bütün regionda | 3; 5 | + | | adi | |
| | | **Gəmiricilər - R o d e n t i a** | | | | | |
| 22 | *Hystrix indica* | Qobustan, CŞ Şirvan, | 5; 8 | + | | nadir | LC, QK |
| 23 | *Allactaga elater* | Abşeron y/adasından şimala Xəzəryanı ovalıq, Qobustan | 4; 5 | + | | adi | |
| 24 | *Allactaga williamsii* | Qobustan, Cənub-şərqi Şirvan, | 4; 5 | + | | çoxsaylı | |
| 25 | *Cricetulus migratorius* | Xızı daxil bütün regionda | 4; 5 | + | | adi | |
| 26 | *Meriones libycus* | Xızı daxil bütün regionda | 4; 5 | + | | çoxsayl | |

| N | Növün elmi adı | Qeydə alındığı yer | İstinad | Qeydə alınıb | Mövcudlu q ehtimalı | Nisbi sayı | IUCN/QK |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | ı | |
| 27 | *Microtus socialis* | Xızı daxil bütün regionda | 4; 5 | + | | adi | |
| 28 | *Mus musculus* | Xızı daxil bütün regionda | 4; 5 | | yüksək | | |
| 29 | *Rattus norvegicus* | Abşeron, Siyəzən | 4; 5 | | yüksək | | |
| 30 | *Sylvaemus withetrbyi* | Qobustan Qoruğu, Abşeron | 4; 5 | | yüksək | | |
| **Yırtıcılar - C a r n i v o r a** | | | | | | | |
| 31 | *Canis aureus* | Abşeron, Qobustan, Siyəzən | 5 | + | | adi | |
| 32 | *Canis lupus* | Xızı daxil bütün regionda | 5; 9 | + | | nadir / adi | |
| 33 | *Vulpes vulpes* | Xızı daxil bütün regionda | 5; 7 | + | | çoxsayl ı | |
| 34 | *Mustela nivalis* | Qobustan, Abşeron | 5 | | yüksək | | |
| 35 | *Vormela peregusna* | Qobustan, Abşeron | 5 | | orta | | LC, QK |
| 36 | *Meles meles* | Qobustan-Abşeron sərhəddi, CŞ Şirvan | 5 | | yüksək | | |
| **Cütdırnaqlılar - A r t i o d a c t i l a** | | | | | | | |
| 37 | *Gazella subgutturoza* | Qobustan, Cənub-şərqi Şirvan | 5 | + | | nadir | CE, QK |

## ƏDƏBİYYAT


1. Wilson, D. E., F. R. Cole, J. D. Nichols, R. Rudran, and M. S. Foster, eds. Measuring and Monitoring Biological Diversity: Standard Methods for Mammals. Washington, DC: Smithsonian Institution Press, 1996.
2. Müseibov M.A. Azərbaycanın fiziki coğrafiyası. Bakı, 1998, 400 səh.
3. Гошуналнев А.Г. Землеройкн (Soricidae) Азербайджана: Автореф. дисс. канд. биол. наук. Киев: 1990, 22 с.
4. Иəsənov N.Ə., Raxmatulina И.K. Abşeron-Qobustanın teriofaunasına dair // Azərbaycan Milli EA-nın Xəbərləri, Biol. elm. ser, 2004, № 1-2, s. 95-107.
5. Верещагнн И.К. Млекоинтающие Кавказа. М.-Л.: 1959, 704 с.
6. Рахматулнна, И.К. Рукокрылые Азербайджана (Фауна, Экология, Зоогеграфия) / науч. ред. Г.Т. Мустафаев.- Баку: «CBS», 2005, 480 с.
7. Гидаятов Ю.Х. Материалы ио экологнн (расиространение, чнсленность и интанне) лисиц в Азербайджане // Фауна и экология иозвоночных Азербайджана, Баку: 1975, с. 74-124.
8. Рахматулнна И.К, Аскеров Э.К. Современный ареал дикобраза (*Hystrix indica* Kerr, 1799) в Восточиом Закавказье. Консервация аридных и семнарндных экосистем в Закавказье (Сбор. науч. трудов), Тбилнсн, 2003: 56-57
9. Животиый мнр Азербайджана. Том. 3, Позвоночные. Академня наук Азербайджанской Ресиублнкн, Инстнтут Зоологии., Баку, 2000, 654 с.
10. Иəsənov N.Ə., Əbdurəhmanova N.Y. Azərbaycanda səhra gönlücəsinin (*Eptesicus bottae* Peter, 1869) sistematik statusu və ekologiyasına dair // Azərbaycan Zooloqlar Cəmiyyətinin əsərləri. Bakı: Elm, 2010, II-cild, s. 850-856.